*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 490-498*

https://doi.org/10.62837/2025.10.490

**RZAYEVA NƏRMİN KƏRƏM QIZI**
***AMEA-nın Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunun doktorantı***
***(rzayeva.nk@gmail.com)***

# AZADƏ RÜSTƏMOVANIN ELMI ARAŞDIRMALARINDA KLASSİK İRSİN TƏDQIQININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə görkəmli ədəbiyyatşünas alim Azadə Rüstəmovanın klassik Azərbaycan ədəbiyyatının araşdırılmasında oynadığı mühüm roldan bəhs olunur. Rüstəmova klassik irsi yalnız mətnlərin məzmunu və süjeti əsasında deyil, həm də onların tarixi, nəzəri və poetik xüsusiyyətlərinə əsaslanaraq öyrənmişdir. Məqalədə əsas diqqət onun klassik ədəbiyyatın tarixi-nəzəri problemlərini yenilikçi şəkildə şəkildə izah etməsinə yönəlir. O, orta əsrlər ədəbiyyatını müasir nəzəri meyarlarla təhlil edir, ədəbi şəxsiyyətləri yaşadıqları dövr, cəmiyyət və mədəni mühitlə əlaqələndirir. Müəllifin fikrincə, Rüstəmovanın tədqiqatlarında tarixi yanaşma ilə poetik təhlil bir-birini tamamlayır. Məqalədə həm də vurğulanır ki, Azadə Rüstəmovanın yaradıcılığında əsas iki şəxsiyyət-Nizami Gəncəvi və Məhəmməd Füzuli xüsusi yer tutur. Rüstəmova Füzulinin lirikasını yalnız dini-mistik deyil, həm də insani, real duyğuların ifadəsi kimi təhlil etmişdir. Nizami Gəncəvi yaradıcılığını tədqiq edərkən Azadə Rüstəmova “Xəmsə” poemalarının janr xüsusiyyətlərini müəyyənləşdirmiş, Nizaminin bədii struktura gətirdiyi yenilikləri açmışdır. Sonda belə nəticəyə gəlinir ki, alimin araşdırmaları klassik irsin bugünkü elmi dəyərləndirməsinə yeni nəfəs gətirmişdir.

**Açar sözlər:** Azadə Rüstəmova, klassik ədəbi irs, tarixi poetika, elmi-nəzəri təhlil

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ КЛАССИЧЕСКОГО НАСЛЕДИЯ В НАУЧНЫХ ТРУДАХ АЗАДЭ РУСТАМОВОЙ

**РЗАЕВА НАРМИН**

**РЕЗЮМЕ**

В статье рассматривается важная роль, которую видный литературовед Азада Рустамова сыграла в изучении классической азербайджанской литературы. Рустамова исследовала классическое наследие не только на основе содержания и сюжета текстов, но также исходя из их исторических, теоретических и поэтических особенностей. Основное внимание в статье уделяется её инновационному подходу к объяснению историко-теоретических проблем классической литературы. Учёный анализирует средневековую

литературу с опорой на современные теоретические критерии, связывая литературные личности с эпохой, обществом и культурной средой, в которой они жили.

По мнению автора, в исследованиях Рустамовой исторический подход гармонично дополняется поэтическим анализом. В статье также подчёркивается, что в творчестве Азадэ Рустамовой особое место занимают две фигуры — Низами Гянджеви и Мухаммад Физули. Рустамова интерпретирует лирику Физули не только как выражение религиозно-мистических мотивов, но и как отражение человеческих, реальных чувств. Изучая творчество Низами Гянджеви, Азада Рустамова выявила жанровые особенности поэм «Хамсы» и раскрыла новшества, внесённые Низами в художественную структуру. В завершение делается вывод, что исследования учёного внесли новое дыхание в современную научную оценку классического наследия.

**Ключевые слова:** Азада Рустамова, классическое литературное наследие, историческая поэтика, научно-теоретический анализ

## THE MAIN DIRECTIONS IN THE STUDY OF CLASSICAL HERITAGE IN THE SCHOLARLY RESEARCH OF AZADA RUSTAMOVA

**Rzayeva Narmin**

**Abstract**

The article discusses the significant role played by the prominent literary scholar Azada Rustamova in the study of classical Azerbaijani literature. Rustamova examined the classical heritage not only on the basis of the content and plot of the texts, but also by considering their historical, theoretical, and poetic features. The article mainly focuses on her innovative approach to explaining the historical and theoretical issues of classical literature. She analyzes medieval literature using modern theoretical criteria, linking literary figures with the era, society, and cultural environment in which they lived.

According to the author, the historical approach and poetic analysis complement each other in Rustamova's research. The article also emphasizes that two major figures — Nizami Ganjavi and Muhammad Fuzuli — hold a special place in Azada Rustamova's scholarly work. Rustamova interprets Fuzuli's lyric poetry not only as an expression of religious-mystical motifs but also as a reflection of genuine human emotions. In her study of Nizami Ganjavi's creative legacy, Azada Rustamova identified the genre-specific features of the *Khamsa* poems and revealed the innovations that Nizami introduced into artistic structure. In conclusion, it is noted that the scholar's research has brought a fresh perspective to the modern scientific evaluation of the classical literary heritage.

**Keywords:** Azada Rustamova, classical literary heritage, historical poetics, scientific-theoretical analysis

**Giriş.** Ədəbiyyat tarixçiliyi sahəsində Azadə Rüstəmovanın qələmə aldığı tədqiqat və araşdırmalar özünün mövzu və əhatə dairəsi, yaradıcılıq problemlərinin qoyuluşu, ədəbi şəxsiyyətə yaşayıb-yaratdığı dövrün, tarixi şəraitin gerçəklikləri nəzərə alınmaqla elmi münasibət bildirməsi baxımından diqqəti cəlb edir. Klassik irslə bağlı Azadə Rüstəmovanın elmi fəaliyyətində ədəbiyyat tarixinin dövrləşdirilməsi, ədəbi-mədəni mühit, dövrün ictimai-siyasi-tarixi mənzərəsi, orta əsr sənətkarının dünyagörüşü, yaradıcılığının ideya-bədii qaynaqları son dərəcə aktuallıq kəsb edən problemlər sırasında aparıcı yerlərdən birini tuturdu. Azadə Rüstəmovanın elmi araşdırmalarında Şərq poetik təcrübəsinə və yaradıcılıq ənənələrinə dərindən nüfuz etmək, onun təsir dairəsini üzə çıxarmaq, mövzu və ideya-sənətkarlıq xüsusiyyətlərini araşdırmaq, bir küll halında ədəbi-estetik mahiyyətini açmaq cəhdi özünü qabarıq nümayiş etdirən əsas əlamət və keyfiyyət göstəriciləri idi. Bu mənada alimin Azərbaycan əsilli sənətkarların dövrün yaradıcılıq ənənələrindən irəli gələn ərəb və fars dillərində qələmə alınan əsərlərini geniş təhlil müstəvisinə çıxarılmasında yüksək şərqşünas istedadı ilə ədəbi-tarixi həqiqəti obyektiv və prinsipial mövqedən dəyərləndirməsi özünün diqqətçəkici məqamları ilə fərqli və professional səviyyəni nümayiş etdirməkdədir. Bu xüsusda akademik İsa Həbibbəylinin alimin elmi yaradıcılıq axtarışlarına verdiyi qiymət obyektiv reallığı əks etdirir: *"Fikrimizcə, Azadə Rüstəmovaya məxsus olan ən mühüm yenilik onun şərqşünaslıqda ədəbi şəxsiyyətlərin həyatı və yaradıcılığının tədqiqindən konkret ədəbi mərhələnin öyrənilməsinə keçid istiqamətindəki ardıcıl elmi fəaliyyəti ilə əlaqədardır. ...Eyni zamanda, Azadə Rüstəmovanın tədqiqatlarında dövrün ədəbiyyatı ideya-mövzu baxımından deyil, sənətkarlıq səviyyəsi cəhətdən də dərindən təhlil edilib dəyərləndirilmişdir. Azadə xanımın təhlilləri və qiymətləndirmələri əsaslı tədqiqatçılıq zəhməti ilə dərin nəzəri təfəkkürün vəhdətindən yoğrulmuşdur". (5, səh21)*

Azadə Rüstəmovanın klassik irs konsepsiyasında konkret bir dövrün yaradıcılıq təcrübəsini, onu təmsil edən sənətkarın yaradıcılığını məhdud bir çevrə hüdudlarında deyil, daha geniş sərhədlərdə, məhdudiyyətlər tanımayan miqyas genişliyində təqdim edilməsi tarixi-müqayisəli tədqiqat metodunun imkanlarından bacarıqla, yüksək professonallıqla istifadə edildiyini göstərir.

Əlbəttə, burada tarixiliklə nəzəriliyin fərqli bir mahiyyətdən daha artıq səviyyədə bir-birini tamamlayan və sintez edən məqamları da açıq-aydın müşahidə edilməkdədir. Belə bir yanaşma metodunun, təhlilin bir qədər də dəqiq deməli olsaq, tarixi poetikanın prisiplərindən yararlanmaqla aparılması nəzərə çarpacaq dərəcədə özünü büruzə verir. Maraq doğuran bir əlamətdar cəhət ondan ibarətdir ki, tarixi poetika anlayışının özündə ədəbiyyat nəzəriyyəsinə aid edilə biləcək kateqoriyalarla yanaşı, ədəbi təcrübənin inkişaf meyillərinin və yeniləşən keyfiyyət dəyişmələrinin öyrənilməsi də bir məqsəd kimi qarşıya qoyulur. Bu, tarixi poetikanın mahiyyətində dayanan prinsipial yaradıcılıq məsələlərindən biri kimi müəyyənləşdirilir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 490-498*

Belə bir xarakterik xüsusiyyət poetika ilə bağlı fikirlərdə də özünün real təsdiqini tapır: *" Poetika – bədii ədəbiyyat haqqında elm; ədəbiyyat nəzəriyyəsi; ədəbiyyatşünaslığın bölmələrindən və ən qədim terminlərindən biridir. ...Hazırda ədəbiyyatşünaslığın bir qolu olmaq etibarilə poetika yaradıcılığın spesifikasını təyin etməklə, bədii əsərin quruluşunu, onun ideya-estetik məzmununu, kompozisiya və süjetini, surətlər sistemini, şeir və nəsr dilinin xüsusiyyətlərini öyrənməklə, ədəbi prosesin qanunauyğunluqlarını, ədəbi metodları, cərəyanları, üslubları, ədəbi növləri və janrları tədqiq etməklə məşğuldur".(2, səh140)*

Ancaq onu da qeyd etmək lazımdır ki, tarixin və tarixiliyin özünün müasir elmi-nəzəri düşüncənin nailiyyətləri səviyyəsindən araşdırılması da çağdaş dövrün qarşısında duran mühüm tələb və şərtlərdən birinə çevrilməkdədir. Müasirlik bu anlamda həm də estetik kateqoriya kimi, tədqiqatçının ədəbi-tarixi təcrübəni dəyərləndirmə fəlsəfəsinin əsas müddəalarını üzə çıxaran şərh və təfsiri də qaçılmaz edir.

Azadə Rüstəmovanın ədəbi-tarixi istiqamətli araşdırmalarında özünü parlaq şəkildə nümayiş etdirən belə nüansları təqdir edən mülahizələrin birində belə bir obyektiv qənaətə gəlinir ki:*"Azadə xanım ədəbi-tarixi materialları dərindən öyrənən, təhlil edən, təhlillərini müasir elmi-nəzəri problemlərlə əlaqələndirən, ədəbi materialı yarandığı dövrün və sonrakı zamanların mövcud estetik-fəlsəfi fikri ilə müqayisədə səciyyələndirən bir alimdir. Ədəbiyyatın dünyəvi, regional və milli problemləri ilə bağlı çağdaş elmi araşdırmaları ardıcıl izlədiyinə görə o, ədəbi materiallarımızı təhlil edərkən onlara müasir dünyəvi meyarlarla yanaşmağı bacarır". (8, səh5-6)*

Filologiya elmləri doktoru, professor Fəridə Əzizova alimin klassik irsə, onun aparıcı nümayəndələrinin yaradıcılığına belə bir yanaşma tərzindən elmi münasibət bildirilməsini sənətkarı lokal bir məkandan regional və dünya arenasına çıxışına bir vəsilə olduğunu təqdir edərək yazır: "*Tədqiqatçının* (Azadə Rüstəmovanın – N. R.) *müqayisəli təhlilləri müxtəlif səpkili olub, eyni bir sənətkarın ayrı-ayrı əsərləri, eyni bir dövrün müxtəlif şairləri və habelə ayrı-ayrı vaxtlarda yazıb yaratmış müəlliflər arasında aparılır. Həm də o, şərq ədəbiyyatının mükəmməl bilicisi kimi Firdovsi, Cami, Sənai, Hafiz, Nəvai... ilə ümumiyyətlə isə ərəb, fars, türk, hind, gürcü xalqlarının poeziya nəhəngləri ilə Azərbaycan şairlərini, onların yaradıcılığından paralelləri gətirməklə ayrı-ayrı əsərlərini tarixi-müqayisəli üsulla tədqiq edərkən elmi həqiqətə çatmaq naminə təsvir və təhlil predmetinin mövcud real məzmununa və səciyyəvi xüsusiyyətlərinə arxalanırdı. Firdövsi-Nizami, Nizami-Rustaveli, Sənai-Nizami, Nizami-Nəvai və s. müqayisələr və paralellər buna sübutdur. Olur ki, tədqiqatçı klassik Azərbaycan poeziyasının Qərb və Avropa ədəbiyyatı ilə müqayisəli və paralel məqamlarına diqqət yetirir, yeri gəldikcə Dante, Höte, Şiller, Volter, Bokaçço yaradıcılığı ilə Azərbaycan klassikası arasında uyar və ayrılan xətləri, cizgiləri çözələyirdi".(4, səh7)*

Bir klassik Azərbaycan və Şərq ədəbiyyatı üzrə ixtisaslaşan mütəxəssis kimi, Azadə Rüstəmovanın tədqiqatlarına yüksək elmi sanbal gətirən məqamlardan bəhs

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 490-498*

edərkən mütləq şəkildə alimin bu qəbildən olan araşdırmalarında tarixiliklə yanaşı olaraq tarixi poetikanın tələbləri və normaları ilə yaxından səsləşən cəhətlər də özünü qabarıq şəkildə nümayiş etdirir. Diqqəti cəlb edən bu xüsusiyyətlərin alimin ilk məqalələrini qələmə aldığı vaxtdan bütün elmi fəaliyyəti boyu tədqiqatçı fərdiyyətinə özünəməxsus səciyyəvi məziyyətlər aşıladığını burada xüsusi qeyd etmək lazımdır. Klassik ədəbi-bədii təcrübə və onun fakturasına çevrilən bədii mətnə belə bir baxış bucağından yanaşmaq təbii ki, mətnin obyektiv dərkinə və təfsirinə geniş imkanlar yaratmaqla yanaşı, müəllifin təhlillərinə obyektiv və prinsipial sənət meyarlarından çıxış edilərək mühakimə yürütmək tərzi və yüksək elmi-nəzəri səviyyə qazandırır. Açıq etraf etmək lazımdır ki, ədəbiyyat tarixi istiqamətli araşdırmalarda belə bir vacib və zəruri tələblər bəzən nəzərə alınmayanda, haqqında bəhs edilən sahə təsviri ədəbiyyatşünaslıqdan o yana gedə bilmir. Azadə Rüstəmovanın tədqiqatçılıq fəaliyyətini ümumi şəkildə nəzərdən keçirməli olsaq, onu ədəbiyyat tarixi və tarixi-nəzəri istiqamətlərə ayıra bilərik. Belə bir diferensasiya heç də bir-birindən ayrılmanı, fərqli düşüncə tərzini yaratmır, əksinə olaraq, biri digəri üçün geniş və hərtərəfli təhlil və yeni yanaşma tərzini meydana çıxarır.

Başqa bir analogiyanı da burada xüsusi olaraq nəzərə çatdırmaq olar; məsələn, müəllifin Məhəmməd Füzuli kimi bir müqtədir sənətkarın yaradıcılığını ədəbiyyat tarixi müstəvisində araşdırması ilə paralel şəkildə onu tarixi-nəzəri aspektdən təhlilə cəlb etməyə də geniş imkanlar yaradır. Bunu eynilə Nizami Gəncəvi yaradıcılığına həsr olunan hər iki istiqamətli tədqiqatlarda aydın şəkildə görmək mümkündür.

Aparılan araşdırmalar bir daha onu təsdiqləyir ki, əslində alimin elmi axtarışlarını xronoloji ardıcıllıq gözlənilməklə, əsasən üç mühüm mövzu istiqaməti üzrə təsnifatını aparmaq olar:

– Məhəmməd Füzulinin həyat və yaradıcılığına həsr olunan monoqrafik tədqiqatlar səviyyəsində;

-- Nizami Gəncəvinin həyat və yaradıcılığı ilə yanaşı, lirikasının və epik irsinin bir intibah hadisəsi kimi təhlil və araşdırılması baxımından;

– Klassik irsin və milli ədəbi-tarixi təcrübənin Şərq poetik ənənələri ilə səsləşən məqamlarını eyni tədqiq müstəvisində və yanaşma tərzində öyrənilməsi istiqamətində.

Nəzərə almaq lazımdır ki, bir qədər də əvvəl qeyd olunduğu kimi, hər iki ədəbi şəxsiyyətin yaradıcılığını ədəbiyyat tarixçiliyi ilə yanaşı, həm də tarixi poetika və elmi-nəzəri aspektdən araşdırılması faktı Azadə Rüstəmovanın tədqiqatlarında özünün real təsdiqini tapır. Məqalədə Azadə Rüstəmovanın tarixi poetika və elmi-nəzəri mahiyyət daşıyan məqalə və tədqiqlərini iki böyük şair-mütəfəkkirin – Nizami Gəncəvinin və Məhəmməd Füzulinin yaradıcılığı əsasında nəzərdən keçirilməsi daha məqsədəuyğun görünür.

O dövrün gənc tədqiqatçısı kimi Azadə Rüstəmovanın bununla bağlı ilk qə-

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 10, 2025
Səh. 490-498

ləm təcrübələrindən olan “Füzulinin lirikası” (1958) adlı məqalədə lirikliyin ifadə çalarları, eşq anlayışının dini-mistik analyışdan başqa bir real məna və mahiyyət daşıması məsələsinə çox həssaslıqla yanaşılması uzun müddət mübahisə doğuran məqamlara müəyyən aydınlıq gətirilməsi ilə yadda qaldı. Lirik-rübabi şeirin böyük ustadı hesab olunan Məhəmməd Füzulinin lirikasından bəhs edərkən müəllif onun bütün yaradıcılığı boyu lirikanın cazibəsindən kənara çıxa bilməməsini əslində bir məhdudluq anlamında deyil, lirikanın insan hiss və duyğularının ifadəsində ən zəruri vasitələrdən bir olduğuna diqqəti yönəltmək idi: *“Onun* (Məhəmməd Füzulinin – N. R.) *lirikası olduqca rəngarəng, bəhs etdiyi mövzular isə müxtəlifdir. Burada insan qəlbinin incə hiss və həyəcanları, şairin dünyagörüşü, mühitə münasibəti öz həqiqi əksini tapır”.(6)* Ali insani hiss və duyğuların ifadəsində şairin istinad etdiyi anlayışın eşq olması da məqalədə kifayət qədər özünün izah və şərhini tapır. O da nəzərə çatdırılır ki, Füzulinin eşq konsepsiyası heç də bütünlüklə dini-mistika yönümlü deyil, onun real aləmlə qırılmaz əlaqə və bağları da istisna deyil.

Alimin istər türk, istərsə də Avropa füzulişünasları ilə bu xüsusda mübahisə və polemiklarında maraq doğuran məqamlarla rastlaşmaq olur: *“Son zamanlara qədər şairin bir sıra tədqiqatıçları, ingilis şərqşünası E. Gibbdən tutmuş türk alimi Qaraxan Abdulqadirə qədər Füzulinin vəsf etdiyi eşqi ilahi – mistik məna daşıyan məcazi bir eşq kimi qəbul edirdilər. Bu tədqiqatçılar inandırmağa çalışırdılar ki, Füzuli əsərlərində təbliğ edilən eşq – ilahi eşq, şairin təriflədiyi gözəl isə allahın özüdür. Bununla da onlar Füzulinin mistik bir şair olduğu qənaətinə gəlir, onu həyatdan uzaqlaşdırırdılar. ...Doğrudur, Füzuli məhəbbəti geniş məhəbbətdir. Bu məhəbbət adi məhəbbətdən yüksəkdə durur, ülvi və qüdsidir. Lakin bu məhəbbət eyni zamanda həyati, real bir məhəbbətdir.”(6)*

Bu tezisvari müddəalar “Aşıq Çələbi təzkirəsi”ndəki fikirlərlə həmahəng səsləşməsi ilə maraq doğuran bir ortam yaradır: *“Həqiqətən onun* ( Məhəmməd Füzulinin – N. R.) *könlü eşq xərabətidir. Ona görə də fənalıq məskəninin yerlə yeksan olub aləmin qayda-qanunlarından ayrı düşməsinə və şeirinin alovlu olmasına eşq havası səbəb olmuşdur.”(3,səh109)*

Məqalədə Füzuli lirikasının ictimai məzmun və mündəricə daşıması da diqqətdən kənarda qalmır, şairin əsərlərindən gətirilən nümunələrlə özünün təsdiqini tapır. “Füzuli yaşayır” (1958) adlı məqalədə yenə də şairin yaradıcılığında lirikanın məxsusi yeri və mövqeyi diqqət mərkəzində saxlanılır, liriklik, hissi təbəddülatlar şairin poetik dünyasının ecazkar təsir qüvvəsini gerçəkləşdirən mühüm yaradıcılıq iksirlərindən biri kimi önə çəkilir. Müəllif Füzuli lirikasının səciyyəvi cəhətlərini, insanın ruhi-mənəvi aləmini yeniləmək qüdrətini, qəribə bir ovqat üstə kökləmək bacarığını da yüksək qiymətləndirir. Azadə Rüstəmova şairin lirik şeirlərinə bədii-estetik təravət və əlvanlıq gətirən məziyyətlərdən bəhs edərkən sözün ifadə çalarlarından məharətlə istifadə edilməsi manerasına da əhəmiyyətli dərəcədə yer ayırır. Füzuli şeirində və estetik anlamında söz əvəzolunmaz bir vasitə, şeirin təməlində da-

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri №10, 2025
Səh. 490-498

yanan qeyr-adi bir sehr və möcüzədir ki, şeir onunla zühur edərək insan qəlblərini ovsunlamağa başlayır.

Bu yerdə məşhur rus tənqidçisi Vissarion Qriqoriyeviç Belinskinin şeir haqqında məşhur fikirləri yada düşür: *"Şeir həqiqi və əsil (saxta yox) duyğulardan yaranan incəsənət, bədiilik və zərif forma deməkdir: buna görə də, çox zaman bircə yersiz söz, bircə dürüst olmayan ifadə bütün şairanə əsəri korlayır, təsirin bütövlüyünü pozur."(1,səh79)*

Məqalədə Məhəmməd Füzulinin lirik şeirlərində tərənnüm olunan saf sevgi və məhəbbət hisslərinin epik səpkidə qələmə alınan və lirikliyin cazibəsindən heç də xilas ola bilməyən epik irsinə müstəsna dərəcədə təsiri məsələsini də dolayısı ilə işarələyir: *"Şair məhəbbət mövzusunda təkcə lirik qəzəllər yazmaqla kifayətlənməmiş, yaradıcılığının şah əsəri sayılan "Leyli və Məcnun" poemasını da bu mövzunun tərənnümünə həsr etmişdir. Bu poema lirik faciədir, əsərin qəhrəmanı olan Məcnun eşq və məhəbbət mücəssəməsi, Leyli isə sədaqət və vəfa timsalıdır. Şair bu əsərində böyük sənətkarlara məxsus bir ustalıqla azad və qarşılıqlı sevgi ideyasını gözəl, bədii bir formada oxuculara təqdim edir."(7)*

Lirik faciə kimi "Leyli və Məcnun"un janr xüsusiyyətini müəyyənləşdirən müəllifin belə bir müddəanı irəli sürməsi lirikanın istənilən ədəbi növdə və janrlarda müəyyən hadisə və olayların təsirindən dolayı keçirilən hissi anların və təəssüratların verilməsində iştirakını da istisna etmir. Təbii ki, lirik ovqatın və düşüncənin digər ədəbi növlərdə yaranan əsərlərdə belə görüntüsü məhz situativ vəziyyətlərin nəticəsində yaranan hallarla izah oluna bilər.

"Füzulinin "Leyli və Məcnun" poemasının ideya-bədii xüsiyyətləri" (1958), "Orta əsrlər romantik şeirinin bəzi cəhətlərinə dair" (1969), "Klassik Azərbaycan poeziyasında "nəsib-qəzəl problemi"(1989),"Füzulinin ürfani-fəlsəfi görüşlərindən cizgilər". Füzuli 500 (1993), "Təkrarsız qəzəl ustadı" (1996), "Fəna səhrasının çıx seyrinə..." (M. Füzulinin yaradıcılıq metodu haqqında bəzi qeydlər) (1996), "Bir daha Füzuli yaradıcılığında sufizm probleminə dair" (1997), "Yaxın Şərq poetik fikrində "elm-əl bədi"nin təşəkkül tarixindən" (1999), "Füzulinin məhəbbət lirikası və təssəvvüf" (2000) kimi məqalə və tədqiq xarakterli araşdırmalarda Azadə Rüstəmovanın ən mürəkkəb nəzəri-tarixi problemlərin təhlili istiqamətində xüsusi hazırlıqlı, səriştəli tədqiqatçı məharətini aydın şəkildə görmək olur.

Yığcam siyahısı təqdim olunan bu yaradıcılıq məsələləri heç də asan və ötəri problemləri özündə ehtiva etmir. Burada ənənəvi nəzəri baxış və yanaşma tələb edən elə problemlər var ki, onlar klassik poetik fikri yeni bir dönəmin meyar və prinsipləri əsasında çözülməsini bir tələb kimi qarşıya qoyur. Məsələn, irfani-dini-fəlsəfi görüşlərin izah və şərhi, yaradıcılıq metodu probleminin müstəqillik dönəmində klassik ədəbi irsin dəyərləndirməsinə yeni baxış sərgiləməsi son dərəcə aktual yaradıcılıq problemlərindən biri olduğunu izah etməyə elə bir ehtiyac da duyulmur.

Yaxşı haldır ki, Azadə Rüstəmovanın bu yöndə elmi axtarışları nəinki klassik

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 490-498*

Azərbaycan ədəbi-tarixi təcrübəsinin, eyni zamanda Şərq poetik yaradıcılıq ənənələrinin elmi-nəzəri baxımından öyrənilməsində, izah və şərhində mürəkkəb məsələlərə aydınlıq gətirir, qarşıda dayanan perspektiv elmi vəzifələrin həlli istqamətlərinin müəyyənləşməsində fəal şəkildə iştirak edir.

Eyni elmi münasibəti böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığına ehtiramla yanaşmada, verilən müstəsna dəyərlərdə görmək mümkündür. Bir qədər əvvəl qeyd edildiyi kimi, Füzuli və Nizaminin yaradıcılıq irsi Azadə Rüstəmovanın elmi fəaliyyətinin qoşa sütunudur. Füzuli yaradıcılığını biz ona görə önə çəkirik ki, Azadə Rüstəmovanın ilk tədqiqatları və sonralar da qələmə aldığı tədqiq və araşdırmalarda Füzuli şəxsiyyəti, Füzuli irsi dəyişməz, stabil bir mövzu və problem olaraq qalır. Onu da qeyd etmək lazımdır ki, Nizami Gəncəvi irsinə, yaradıcılıq futuratına nəsil-şəcərədən gələn ənənə ilə yanaşı, burada həm də Füzuli təsirindən və sevgisindən irəli gələn nüansları da əyani şəkildə görmək mümkündür. Təbii ki, Füzuli böyük sənətkardır, ancaq Nizami kimi dühanın, Nizami ədəbi məktəbinin özündən sonra gələn sənətkarların yaradıcılığına ustad kimi göstərdiyi təsirdən də burada sərf-nəzər etmək bir yanlışlıq olardı.

Başqa bir analogiyanı da Azadə Rüstəmovanın zəngin elmi irsindən çıxış edərək bildirmək olar: tədqiqatçı ona görə Füzulidən Nizamiyə qayıdır ki, orta əsrlər klassik Azərbaycan ədəbiyyatına və bütövlükdə Şərq poetik fikrinə yeni bir istiqamət verən iki mütəfəkkir sənətkarla yeni bir yaradıcılıq məcrasına yönəldilən klassik ədəbi-bədii təcrübəni bir poetik hadisə kimi konkret bütöv şəkildə, bütün mənzərəsi ilə, faktlarla üzə çıxara bilsin.

Sözsüz ki, bunu Nizaminin poetik irsindən sərf-nəzər edilərək yalnız Füzuli yaradıcılığı ilə təsdiqləmək minillik bir dövrün yaradıcılıq mərhələlərindən üz döndərilməsi və belə bir cəhdin böyük tarixi ənənələrə malik klassik Azərbaycan şeirinin bütövlüyünə natamamlıq gətirə biləcəyi heç də şübhə doğurmayacaqdı.

Diqqət yetirilərsə, Azadə Rüstəmova ilk yazılarında Füzuli ilə yanaşı, vaxtilə Nizaminin ilk dəfə qələmə aldığı eyni mövzulu əsərləri tarixi-müqayisəli aspektdə təhlilini aparmağa təşəbbüs göstərir, burada hətta çox incəliklə ədəbi təsir, sələflər və xələflər məsələsinə də toxunmaqdan doğru olaraq çəkinmir, Nizaminin burada bir ustad kimi statusu qorunub saxlanılır.

"Azərbaycan epik şeirinin mənşəyinə dair", "Orta əsrlər Azərbaycan romantik şeirinin bəzi cəhətlərinə dair", "Nizami şeirində portret, qəhrəman, xarakter. Obrazın psixoloji təqdimi", "Nizami şeirində süjet və kompozisiya", "Nizami şeirinin arxitektonikası", "Nizami şeirində zaman və məkan", "Xəmsə"də alleqoriya, rəmz və simvollar", "Klassik Şərq (Azərbaycan) romantizmi və onun Nizami mərhələsi", "Xəmsə"də bədii zaman" kimi məqalələrdə tarixi poetika müddəalarından çıxış edilən təhlil və yanaşmalarla yanaşı, müasir ədəbiyyat nəzəriyyəsinin arsenalına daxil olan kateqoriya və anlayışlardan çıxış edilərək fikir yürüdülmək cəhdi də burada özünü aydın şəkildə büruzə verir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 490-498*

Azadə Rüstəmova orta əsrlər şərq epik şeir nümunələrini romantik sənət kimi qiymətləndirmişdir. Bu fikrə akademik Məmməd Cəfər Cəfərovun münasibəti belədir: "Azadə Rüstəmova klassik Şərq romantizmində gerçəkliyə riayət edildiyini həyat hadisələrinin canlı təsvirini inkar etmir, əksinə təsdiq edir. Bununla yanaşı, o belə bir fikirdədir ki, həyatilik və gerçəklik anlayışlarını əsas götürüb, Orta əsrlər Şərq və eləcə də Azərbaycan poeziyasında tam realist yaradıcılıq metodu axtarmaq düzgün sayıla bilməz.- Bu elmi nəticə ilə tamamilə razılaşmaq olar.

Azadə Rüstəmova epik şerin mənşəyi və növ xüsusiyyətlərini geniş tədqiqat obyektinə çevirmişdir. Nizami şerini janr xüsusiyyətlərinə görə qruplaşdırmışdır. "Sirlər xəzinə"sini fəlsəfi-didaktik traktat, "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə"ni isə əhatə dairəsinin genişliyi və vüsətlərinə görə mənzum roman adlandırmışdır. Həmçinin Azadə Rüstəmova Nizami şerində obrazların özünə ricət yolu ilə təqdimi məsələsini işıqlandırmaqla Nizami yaradıcılığının mühüm və vacibkeyfiyyətlərindən birini müəyyənləşdirmişdir. Azadə Rüstəmova Azərbaycan ədəbiyyatının tədqiqi sahəsində mühüm elmi mərhələ yaratmışdır. O, ölməz sənətkarların əsərlərinin ideya sənətkarlıq xüsusiyyətlərinin tədqiqini ön plana çəkməklə yeni bir mərhələnin əsasını qoymuşdur.

Göründüyü kimi Azadə Rüstəmovanın klassik irsə yanaşmasında Azərbaycan mediyevistikası kontekstində yeni elmi meyarlar irəli sürülmüşdür. O, orta əsrlər poetik düşüncəsini nəzəri baxımdan təhlil edərək mediyevistik ənənəyə yeni baxış gətirmişdir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Belinski. V. Q. Məqalələr. Bakı: Azərb. Dövlət Nəşriyyatı. 1961.
2. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Bakı: Maarif. 1978.
3. Əliyeva. G. Azərbaycan Füzulişünaslığının təşəkkülü. Bakı, Elm, 2005.
4. Əzizova. F. Çağımızdan görünən orta əsrlər, AMEA-nın müxbir üzvü, Əməkdar Elm Xadimi, professor R. Azadəyə həsr olunmuş II Beynəlxalq Elmi konfransın materialları, Bakı: Elm 2014.
5. Həbibbəyli. İ. Klassik ədəbi irsin tədqiqində fərqli mərhələ və müasirlik. Azadəlik carçısı. Bakı: Teas press Nəşriyyat evi. 2023.
6. Rəhimova. A. Füzulinin lirikası. "Bakı" qəzeti, 14 avqust, 1958-ci il.
7. Rüstəmova. A. Füzuli yaşayır. "Azərbaycan müəllimi" qəzeti, 6 aprel, 1958.
8. Vəliyev. İ. Kitab və tərtibçi haqqında. Nizami Gəncəvi, Lirika. Bakı: Qismət. 2002.

**Rəyçi: fiologiya elmləri doktoru, professor Fərİdə Əzizova**